# Yaradıcılığa verilən qiymət

Dövrün görkəmli ziyalısı Həsən bəy Zərdabinin 22 iyul 1875-ci ildə nəşr etdirdiyi “Əkinçi” qəzeti ilə əsası qoyulmuş Azərbaycan milli mətbuatı bütün dövrlərdə həqiqət carçısı olmuş, cəmiyyəti düşündürən problemləri, dövrün mütərəqqi ideyalarını əks etdirmiş, xalqımızın maariflənməsində, milli və bəşəri dəyərlərin təbliğində mühüm rol oynamışdır. Azərbaycan Respublikası Prezidentinin 5 iyul 1991-ci il tarixli fərmanı ilə Azərbaycanın ilk milli qəzeti olan «Əkinçi» qəzetinin birinci nömrəsinin çapdan çıxdığı gün - 22 iyul Azərbaycan jurnalistikası günü elan edilmişdir.

Azərbaycan mətbuatının özülü 145 il əvvəl sağlam əsaslarla - xalqa təmənnasız xidmət, onun tərəqqisi yolunda çalışmaq amalı ilə qoyulub. Bu bünövrə üzərində ucalan mətbuatımız həmişə xalqımızla bir yerdə olub və olacaqdır.

Azərbaycan Respublikasında mətbuata əlavə maliyyə yardımının ayrılması haqqında Azərbaycan Respublikası Prezidenti sərəncam vermişdir. Kütləvi informasiya vasitələri əməkdaşlarına Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu, həmçinin bəzi jurnalistlərə isə “Əməkdar Mədəniyyət İşçisi”, “Əməkdar jurnalist” adları verilmişdir.

Bir qrup jurnalistlər isə “Vətənə xidmətə görə” 2-ci və 3-cü dərəcəli, “Dostluq” ordeni və “Tərəqqi” medalı ilə təltif olunmuş, 3 nəfər kütləvi informasiya vasitələri nümayəndəsinə isə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında ölkə Prezidenti sərəncam vermişdir.

Bu hər bir informasiya işçisinin əməyinə verilən yüksək qiymət kimi qəbul olunmuşdur.

# “Qəbələ” “Əkinçi”nin davamçısıdır

Qəzet dedikdə sadəcə ağ kağız üzərində gündəlik baş verən hadisələrin yazılması düşünülməməlidir. Qəzet həyatı hərtərəfli əks etdirməli, həyatın güzgüsü olmalıdır. Bu güzgüdə hər kəs əyrini-əyri, düzü-düz görməlidir. Və o “güzgü” az-az da sındırılsa, “çilinklənsə” belə qəzeti yaradan və yazanlar öz əqidəsindən dönməməli, yazdığı hər kəlmədə vicdanlarının səsini, ürəklərinin istəyini nəzərə almalıdır. Hər yazılan yazı qəzet üçün, hər əlinə qələm götürüb yazan isə qəzetçi ola bilməz. Söz ürəkdən gəlməlidir. O, ürəkdən ki, ürək də insanların, xalqın mənafeyini düşünməli, hər döyüntüdə xalqla birgə döyünməli, nəbz eyni vurmalıdır.



**“QƏBƏLƏ” QƏZETİ VƏ ONU QƏZET YARADANLAR**

Qəzetimizin nə az, nə çox düz 87 il əvvəl qədim Qəbələmizin tarixi salnaməsinə adı düşüb. 1933-cü ildə rayonumuzda ilk mətbəə istifadəyə verilmişdir. Rayonumuzun ziyalıları mətbəənin tikilməsi və qəzetin yaranması xəbərini sevinclə qarşılamışlar.

Qəzetimizin nəşrə başlamasının 50 illiyi ərəfəsində rayonumuzun qocaman müəllimlərindən biri, mərhum İbrahim Əzəmmədov rayon qəzetinin yaranması və ilk nömrənin necə sevinclə qarşılandığı haqda böyük maraqla danışmışdı və öz xatirələri ilə qəzetimizdə maraqlı bir yazı ilə çıxış etmişdi: “Oktyabrın 15-i idi qardaşım axşam mənə qəzetin ilk nömrəsini gətirdi:

–Al, bu da sənin qəzetin,–dedi: Uşaq kimi sevindim və acgözlüklə qəzeti oxudum. Qəzet 2 səhifəlik idi. Birinci səhifəsinin başında iri qırmızı hərflərlə, latın əlifbası ilə “Bolşevik mübarizi” sözləri yazılmışdı. Qutqaşenin minillik tarixində bu böyük hadisə idi. Baş məqalənin sağ tərəfində qəzetin ilk nömrəsinin çıxması münasibətilə Qutqaşen rayonunun Firqə Komitəsinin, rayon icraiyyə komitəsinin, rayon fəhlə-kəndli müfəttişliyinin və başqa rəhbər təşkilatlarının təbrikləri çap olunmuşdu”...

**ADLAR DƏYİŞSƏ DƏ**

Qəzet öz fəaliyyəti dövründə 4 adda buraxılmışdır. 1933-1952-ci illərdə “Bolşevik mübarizi”, 1953-1962-ci illərdə “Mübariz”, 1966-1990-cı illərdə “Qalibiyyət” adı ilə nəşr olunmuşdur.

1963-1965-ci illərdə rayonların birləşməsi ilə əlaqədar Göyçayda (Ağdaşda çıxan “Əmək” qəzeti də daxil olmaqla) “Yeni həyat” adı ilə üç rayonun bir birləşmiş qəzeti kimi nəşr olunmuş, 1962-ci ildə isə Şəkidə nəşr olunan “Lenin bayrağı” qəzeti ilə birləşmişdir.

**CAVABDEHLİK MƏSULİYYƏTİ DAŞIYANLAR**

Qəzetin ilk redaktoru Nəriman Həsənov olmuşdur. O, 1937-ci ilin mayınadək işləmişdir.

May ayında rayon partiya komitəsinin birinci katibi işləyən Kazım Vəliyevlə birlikdə dəhşətli repressiyanın qurbanı olmuşdur.

Müxtəlif dövrlərdə Əhmədağa Hacıyev (1939–1942), Baba Qəhrəmanov (1944–1946, 1949-1956), Canan Şirinov (1946–1948), Ramazan İsmayılov (1948-1949), (1956-1962),(1966-1987), Əziz Əzizov (1987-2001) Tacəddin Məmmədov (1993 may-iyun), Nadir Atakişiyev (2001-2011), Oqtay Məmmədov (2011-2016) Varis Yaqubov (2016-2020) “Qəbələ” qəzetinin redaktorları olmuşdur.

Bu dövrdə qəzetimiz dəfələrlə Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətinin və Respublika Jurnalistlər Birliyinin fəxri-fərman və diplomlarına layiq görülmüşdür.

Qəzet ilk nömrələrindən doğru və ədalətli yol seçmiş, dövlətin, xalqın mənafeyinin qarantı olmuşdur, onların hüquqlarını, milli-mənafe dəyərlərini müdafiə etmiş, xalqın tribunasına çevrilmişdir.

Qəzetin ana xətti həmişə ölkəmizin sosial-iqtisadi inkişafında qazanılan uğurları və qarşıda duran vəzifələri təbliğ etməkdir. Qəzet həmişə dəqiq, ədalətli, qərəzsiz, operativ mövqe tutur. Sosial ədalətsizliyə, saxtakarlığa, süründürməçiliyə qarşı barışmaz mövqe tutur.

“Qəbələ”nin səhifələrində kənd təsərrüfatının inkişafında, təhsil, səhiyyə, mədəniyyət müəssisələrində, sahibkarlıq mühitində qazanılan uğurlara, rayonumuzda keçirilən ölkə və beynəlxalq əhəmiyyətli tədbirlərə geniş yer verilmişdir.

**PEŞƏKARLIQ MÜBARİZƏSİ**

Bildiyimiz kimi, bütün dünyada tüğyan edən (COVİD-19) koronavirus pandemiyası ölkəmizdə də iqtisadi inkişafa təsir etmiş, insanların sağlamlığında ciddi problemlər yaratmışdır.

Ölkə Prezidenti İlham Əliyev insanların sağlamlığını ön plana çəkmiş, onların pandemiyadan qorunması, xəstələrin sağalıb yenidən öz həyatına davam etməsi üçün lazımı tədbirlər görmüşdür.

Koronavirus pandemiyasının covlan etdiyi bir dövrdə həkimlər, polis işçiləri və s. kimi jurnalistlərin də üzərinə mühüm vəzifələr düşür. Operativ Qərərgahın qərarları insanlar arasında geniş təbliğ olunmalı, virusun törətdiyi fəsadlar, sosial izolyasiya qaydaları əhaliyə geniş izah olunmalıdır. Bəzi insanların cahilcəsinə yaydığı dezinformasiyalara qarşı qətiyyətli mövqe ilə cavablar verilməli, sosial şəbəkələrdə geniş yayılmış informasiya xaosunun qarşısı alınmalıdır. Hər bir jurnalist, hər bir qələm əhli xəbər əldə etmək və ötürmək qabiliyyətindən peşəkarcasına istifadə etməlidir. Bir sözlə, hər bir media nümayəndəsi belə bir vəziyyətdə ictimai rəyi düzgün yönəltməyə çalışmalı, qələmini bu “səssiz müharibə” də süngüyə çevirməyi bacarmalıdır.

Hazırda qəzetimizi ərsəyə gətirənlər kiçik bir kollektivdir. Bu kollektivin hər bir üzvü “Qəbələ” nin dövrün nəbzini tutması üçün çalışırlar. Redaktorumuz yaradıcı əməkdaşlarımızla bahəm qəzet materiallarının yazılması, açıq, aydın və qəzet üçün yararlı şəkillərin çəkilməsi, səhifələrin dizayn olunması da daha çox əmək sərf olunan işlərdir.

Qəzet materiallarının aid olduğu şriftlərlə səhifədə yerləşdirilməsi ən adi orfoqrafik səhvlərin belə diqqətdən qaçmamasına dizaynçı bir qələm sahibi qədər məsuliyyət daşıyır.

Ona görə də “Qəbələ” də çalışan hər kəs öz işinə məsuliyyət hissi ilə yanaşır.

“Əkinçi” dən başlanan bir yolu “Qəbələ” də, onun ideya xətti ilə özünəməxsus tərzdə davam etdirir, rayonumuzun tarixini yaşatmağa çalışırlar.

Prezident İlham Əliyev 2020-ci il 30 iyun tarixli “Azərbaycan Milli Mətbuatının 145 illik yubileyinin keçirilməsi haqqında” Sərəncamı ilə... Azərbaycan milli mətbuatının 145-ci ildönümü kimi mühüm ictimai-siyasi hadisəsinin arxa planda qalmasına, unudulmasına yol vermədi.

Pandemiya ilə mübarizə aparıldığı bir vaxtda bu sərəncamın verilməsi sübut etdi ki, mətbuatın ənənələrinin qorunması və təbliğinin vacibliyi, kütləvi informasiya vasitələrinin ölkəmizin ictimai-siyasi həyatındakı yeri və rolu nəzərə alınır.

“Əkinçi” qəzeti ilə əsası qoyulan milli mətbuatın tarixi müxtəlif dövrlərdə fərqli inkişaf dinamikası ilə yaddaqalan olub.

“Qəbələ” qəzeti də 87 illik bir tarix yaşayaraq həmişə xalqın mənafeyinə xidmət edib. Bu gün də, milli mətbuatımıza verilən qiymət, doğmalıq hissi onun dövrün tələblərinə cavab verəcək bir tərzdə öz fəaliyyətini davam etdirməsinə stimul verir.

**B. İSAYEVA.**

# İmzan axtarılırsa...

*İnad ən uca dağa da üstün gələr.*

*(İndoneziya xalq məsəli).*

İnadcıllıq həmişə xoş qarşılanan xüsusiyyət deyil. Ancaq inadcıllıq həm də “İnsanlara” sözübütövlülük, öz arzusu uğrunda inadla israr etmək, mübarizə aparmaq deməkdir. Bu xalq məsəli düz 44 il əvvəl mənim həyat yollarımın devizi olmuşdur. O arzu mənim həyat amalım idi... İnsanların həyatını olduğu kimi təsvirləşdirmək, təbiətin gözəlliklərini gözəl baxışla görmək, gözəl duyğularla duymaq, həyatda yaşarkən qarşıya çıxan hər maneəni, hər çətinliyi, hər haqsızlığı ən xırda cizgiləri ilə belə görmək və onlarla mübarizə aparmaq məni bu sənəti sevməyə sövq edirdi. M. Ə. Sabirin “Hophopnamə”sindəki kimi, düzü düz, əyrini əyri görüb yazmaq, insanlar, həyat və həqiqətlər arasında həmişə düzgün mövqedə durmaq üçün bu sənəti seçdim. Bu sənətə yiyələnmək üçün 3 il “imtahanlarla” döyüşdüm, məktəb məzunu olduqdan sonra qəbul ola bilmədim, 3 ildə hər il 3 dəfə qəbul imtahanı verdim (göndərişli hazırlıq, qiyabi, əyani), 4-cü ili 11-ci dəfə qəbul imtahanlarında müvəffəq qiymətlərlə tələbə adı qazana bildim. İmtahanlarda heç vaxt qeyri-kafi qiymət almamışdım, sadəcə sonda müsabiqədən keçməzdim. Qeyd edim ki, 6 il BDU-nun jurnalistika fakültəsində oxudum, dövrün ən gözəl, tanınmış professorlarından, publisistlərindən, yazarlarından, icmalçılarından bu elm ocağında dərs aldım, qəzetçiliyi öyrənmək üçün öncə mətbəədə işlədim, şriftlərin dilini, çap və linotip maşınlarının gücünü gördüm, mətbəədə çalışan insanların çətinliklərini mürəttib işləyərkən daha yaxından yaşadım. Korrektor işlərkən öz ana dilimizi kamil öyrənməyin vacibliyini öyrəndim, ədəbi işçi vəzifəsində işlərkən öz sevimli peşəmlə işə başladığımı hiss etdim. Rayonumuzun həyat salnaməsini qəzetimizin səhifələrində əks etdirməyə çalışdım. Kənd təsərrüfatı, sənaye, təhsil, səhiyyə, sadə peşə adamları haqqında reportaj və oçerklər, zarisovkalar, xəbərlər və bəzən də bədii yazılar yazdım və qəzet səhifələrində işıqlandırdım. Biz qəzet işçiləri bəzən müxtəlif səpkilərdə münaqişələrlə də üzləşir və sevimli qəzetimizdə qəzetçilik baxımı ilə belə halları da haqqın, ədalətin həmişə sonda zəfər çaldığını əks etdirərdik. Kimdənsə müsahibə alanda da əvvəlcədən müsahibənin hər kəlməsini olduğu kimi qəzet səhifəsində verəcəyimi qeyd edərdim və öz fikrimdən daşınmazdım...

Məktublar şöbəsində işləmək daha çətin idi. Məktublarda xoş məramlarla bahəm, həll edilməsi vaxt tələb edən, şikayət yönümlü istəklər, məsələlər də olurdu.

Məsul katib isə qəzetin həm görünüşünə, həm də, materialların mövzu baxımından düzgün yer almasına, səhvsiz qəzet kimi nəşrə buraxılmağına cavabdehlik daşıyırdı... Bu, mənim “Qəbələ” də əmək fəaliyyətimin 27 ilinin qısa xronikasıdır.

Yaşayış yerimi dəyişməyimlə əlaqədar sevimli kollektivimdən, işimdən-uzaq düşdüm. Bakıda, başqa qəzetdə işlərkən də sabiq işimə, kollektivimə olan istəyim azalmadı...

Ancaq bir dəfə sadəcə orta təhsilli bir qəzetçinin mənlə müsahibəsi həyatımda çox dəyişiklərə səbəb oldu.

-Siz jurnalist diplomunu neçə ilə almısınız?

-10 ilə,-dedim.

-Niyə elə gec?

-Qabiliyyət imtahanlarını nəzərə almasaq 4 il ərzində 38 qəbul imtahanı vermişəm, hazırlıqda 2 imtahan, qiyabi və əyani şöbələrdə 4 imtahan verərdik... Qiyabi şöbədə oxuduğum üçün 6 il oxumuşam. Amma buna rəğmən sənətimi çox sevirəm,-dedim.

Müsahibim isə:

-Mən 2 aya jurnalist vəsiqəsi almışam... 4 aya isə “Qızıl Qələm” mükafatına layiq görülmüşəm!

-Bu mükafat hər yazara verilmir axı. Hansı yazılarınıza görə almısınız?-dedim.

-Keyfiyyətli məqalələrimə görə!

Düzü, bu müsahibədən sonra çox pərt oldum...

Heyf bu gözəl sənətdən ki, onun adını, şərəfini bu qədər qiymətsiz edirlər. Gündə bir müxtəlif rayonlara ezamiyyət kağızı ilə, müxtəlif idarə və müəssisələrə jurnalist vəsiqəsi ilə gedir və qəzetlərə yazı materialları hazırlayacam deyərək “müsahibə” almağa çalışırlar. Onlar jurnalist və qəzetçi, yazar deyil ki!...

Bu sənəti belə cılızlaşdıranların deyil, əsl qələm sahiblərinin, jurnalistlərin peşə bayramıdır. 22 iyul! “Əkinçi” dən başlanan yolun mübariz davamçıları olan publisistlərin peşə bayramıdır bu tarix!

Və nə xoş mənə ki, illər sonra yenə öz sevimli “Qəbələ”mləyəm, yenə bu qəzetin əməkdaşıyam! Yenə öz elimin, öz yurdumun, öz qəbələlilərimin həyat salnaməsini “tarixləşdirməyə” çalışıram. Hər bir qəzetçi jurnalistin əməyinə verilən dəyər qəzet oxucusunun öz yazarına və onun imzasına verdiyi qiymətdir. Bu qiymət isə hər nömrədə imzanın axtarışıdır.

**BİBİXANIM.**